**Azərbaycan Tibb Universiteti**

**MƏHKƏMƏ TƏBABƏTİ**
**fənni üzrə**
**İŞÇİ TƏDRİS PROQRAMI**
**(SİLLABUS)**

**«TƏSDİQ EDİRƏM»**
**«Məhkəmə təbabəti»**
**kafedrasının müdiri**
**Bunyatov M.O.**
**İmza______________**
**08.09.2022**

| | |
|---|---|
| **FƏNNİN KODU:** | **İPSF-B08** |
| **FƏNNİN NÖVÜ:** | **Məcburi** |
| **FƏNNİN TƏDRİS SEMESTRİ:** | **IX** |
| **FƏNNİN KREDİTİ:** | **3 kredit** |
| **FƏNNİN TƏDRİS FORMASI:** | **Əyani** |
| **FƏNNİN TƏDRİS DİLİ:** | **Azərbaycan dili, rus dili** |

**FƏNNİ TƏDRİS EDƏN MÜƏLLİM:** **dos. Xanməmmədova A.A.**

**KAFEDRANIN ƏLAQƏ NÖMRƏLƏRİ:** **012-594-34-94**

**E-MAİL:** **department_fm @amu.edu.az**

**PREREKVİZİTLƏR:**
**Fənnin tədrisi üçün öncədən "Patoloji anatomiya" fənni tədris olunmalıdır.**

**KOREKVİZİTLƏR:**
**Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.**

**FƏNNİN İZAHATI:**

Məhkəmə təbabəti sərbəst təbabət elmlərindən biri olub hüquq-mühafizə orqanlarının gündəlik təcrübəsində tez-tez rast gəldikləri tibbi və bioloji xarakterli məsələləri hüquq qanunları çərçivəsində aydınlaşdıran bir elmdir.

Məhkəmə təbabəti ilə məhkəmə tibb ekspertizası anlayışlarının çox yaxın olmasına baxmayaraq, bunlar biri-birindən fərqlənirlər. Məhkəmə təbabəti nəzəri elmdir. Məhkəmə tibb ekspertizası isə həmin elmin təcrübi hissəsidir, daha doğrusu məhkəmə təbabətinin təcrübədə tətbiq olunmasıdır. Məhkəmə təbabətinin Tibb Universitetlərində keçirilməsi gələcək həkimlərin ümumi nəzəri biliyini artırır, onlara məhkəmə təbabətinin təcrübədə tətbiq olunması qaydalarını öyrədir.

Məhkəmə təbabəti gündən-günə inkişaf edir və təkmilləşir. Məhkəmə təbabətinin inkişafına şübhəsiz təbabət elmlərinin inkişafı təsir etmişdir. Hüquq elmlərinin məhkəmə təbabəti qarşısında qoyduğu yeni və müxtəlif xarakterli məsələlər onların hərtərəfli müayinə aparılmasını tələb edir. Nəzəri və əməli məsələləri aydınlaşdırmaq üçün məhkəmə təbabəti tibb elminin yeniliklərindən istifadə edir. Bu elm məhkəmə kimyası, kriminalistika və cinayət hüququ elmləri ilə sıx əlaqədardır.

Məhkəmə-tibb müayinəsinin obyektləri dörddür: meyit, canlı şəxs, maddi sübutlar və istintaq işi sənədləri.

Meyitin müayinəsi, məhkəmə-tibb ekspertizasının ən çətin və ən mühüm hissəsidir. Zorakı və zorakı ölümə şübhə törədən ölüm hadisələrində meyit mütləq məhkəmə-tibb müayinəsindən keçirilir.

Canlı şəxslərin məhkəmə-tibb müayinəsi, məhkəmə təbabətinin başqa obyektlərinə nisbətən miqdarca daha çox yer tutur. Canlı şəxslərin müayinəsinə səbəb çoxdur. Bunlardan sağlamlığa zərər vurmanın dərəcəsinin, xəsarətlərin əmələ gəlmə müddətini və xarakterini, qanunsuz abortu, zorlama, öz üzvünə xəsarət yetirməni, yaşın təyini və s. kimi məsələləri aydınlaşdırmaq üçün aparılan ekspertizaları göstərmək olar.

Cinayətin üstünün açılmasında, törədilmiş cinayətin cinayətkara sübut edilməsində maddi sübutlar böyük rol oynayır və məhkəmə-tibb laboratoriyalarda insan orqanizminin ifrazatları və ya toxuma hissələrinə şübhə doğuran maddələr müayinə edilir.

Məhkəmə-tibb ekspertizasının obyektlərindən biri də istintaq işi materiallarıdır və bunlara istintaq eksperimenti, baxış və dindirmə protokolları, xəstəlik tarixi, başqa ekspertlərin rəyləri və s. aid edilir.

**FƏNNİN MƏQSƏDİ:**

Məhkəmə təbabəti fənnini keçərkən tələbə aşağıdakıları bilməlidir: ekspertizanın təyinini, keçirilməsini, sənədləşdirilməsini nizamlayan normativ aktları və cinayət-prosessual qanunvericiliyi, məhkəmə-tibb ekspertinin hüquq və vəzifələrini, ilkin istintaq hərəkətlərini aparan zaman məhkəmə təbabəti sahəsində olan mütəxəssis haqqında müddəalarını, məhkəmə-tibb ekspertiza idarələrinin struktur təşkilini; meyitlərin məhkəmə-tibbi müayinə qaydalarını, sağlamlığa zərər vurmanın məhkəmə-tibbi təyinini; zorakı ölüm və ona şübhə olan zaman məhkəmə-tibbi diaqnozun və nəticələrini tərtibi prinsiplərini; məhkəmə-tibbi tanatologiyanın əsas

elmi məlumatlarını; məhkəmə-tibbi travmatologiyanın, mexaniki xəsarətlərin və digər xarici faktorların təsirindən baş verən xəsarətlərin, zəhərlənmələrin, mexaniki asfiksiyaların ekspertizasının ümumi məsələlərini; bioloji xarakterli obyektlərin məhkəmə-tibbi müayinəsi zamanı laborator metodları, qan, sperma, tükün ekspertizasını, şəxsiyyətin identifikasiyasını; tibb işçilərinin peşə və peşə-vəzifə hüquq pozuntuları zamanı cinayət məsuliyyətinə cəlb olunmalarını.

**FƏNNİN NƏTİCƏLƏRİ:**

Məhkəmə təbabəti fənni tədris olunub qurtardıqdan sonra tələbə aşağıdakıları bacarmalıdır: Hadisə yerinə baxış keçirən zaman ölümün baş verməsini və müddətini təyin etməyi, hadisə yerinin müayinə protokolunun tərtibində müstəntiqə kömək göstərməyi (meyitin duruş vəziyyətini, paltarların təsvirini, cinsin və təxminən yaşının təyinini, meyit əlamətlərini, xəsarətlərin təsvirini); məhkəmə təbabətində qəbul olunmuş sxemə uyğun olaraq mexaniki xəsarətləri təsvir etməyi; bioloji xarakterli maddi sübutların axtarılıb, tapılıb, götürülməsində və qablaşdırılmasında, maddi sübutları müayinə edən ekspertlərin qarşısında qoyula bilən sualların tərtibində müstəntiqə kömək göstərməyi; meyitin məhkəmə-tibbi müayinəsinin texnikasına yiyələnməyi, laborator müayinələri (məhkəmə-kimyəvi, histoloji və s.) aparmaq üçün orqanları və ya onların hissələrini götürməyi, həmin müayinələrin aparılması üçün göndərişlərin doldurulmasını və “Ekspert rəyinin” (“meyitin məhkəmə-tibbi müayinə aktı”) təsviri hissəsini tərtib etməyi; ölüm haqqında tibbi şəhadətnaməni doldurmağı; canlı şəxslərin məhkəmə-tibbi müayinəsini aparmağı, aşkar olunan xəsarətləri təsvir etməyi.

**FƏNNİN MÖVZULARI:**

**Təcrübələr**

| N | Mövzular | Saat |
|---|---|---|
| **1** | Məhkəmə-tibb ekspertizası, məhkəmə-tibb ekspertizasının obyektləri və müayinə üsulları. İlkin, əlavə, təkrar məhkəmə-tibb ekspertizası. Məhkəmə-tibb eksperti və həkim ekspert. Ekspertin hüquq və vəzifələri, məsuliyyəti. | **2** |
| **2** | Canlı şəxslərin məhkəmə-tibb ekspertizası, səbəbləri, onun təşkili, aparılma qaydaları və sənədləşdirilməsi. | **2** |
| **3** | Sağlamlığa zərər vurmanın məhkəmə-tibb ekspertizası. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində zağlamlığa zərər vurmaya dair maddələr. | **2** |
| **4** | Mübahisəli cinsi vəziyyətlərdə və cinsi cinayətlərdə aparılan məhkəmə-tibb ekspertizalar. Yaşın məhkəmə-tibbi təyini. | **2** |
| **5** | Məhkəmə-tibbi travmatologiya. Bərk küt əşyaların təsirindən törənən xəsarətlərin məhkəmə-tibbi ekspertizası. | **2** |

| | | |
|---|---|---|
| **6** | Hündürlükdən yıxılma zamanı əmələ gələn xəsarətlərin məhkəmə-tibbi ekspertizası. | **2** |
| **7** | Nəqliyyat travmaları zamanı aparılan məhkəmə-tibbi ekspertiza. | **2** |
| **8** | İti alətlərlə zədələnmələr zamanı aparılan məhkəmə-tibbi ekspertizalar. | **2** |
| **9** | Odlu silahlarla zədələnmələrin məhkəmə-tibbi ekspertizası. | **2** |
| **10** | Meyitlərin məhkəmə-tibbi ekspertizasının (müayinəsinin) səbəbləri, aparılma qaydaları və sənədləşdirilməsi. | **2** |
| **11** | Meyitin tapıldığı yerdə müayinəsi və sənədləşdirilməsi. İlkin və gecikmiş meyit əlamətləri. | **2** |
| **12** | Meyitlərin müayinə texnikası. Naməlum,parçalanmış, skeletləşmiş meyitlərin müayinə xüsusiyyətləri. | **2** |
| **13** | Mexaniki asfiksiyalar səbəbindən baş vermiş ölüm hallarında meyitlərin məhkəmə-tibbi ekspertizası. | **2** |
| **14** | Müxtəlif fiziki faktorların (yüksək və aşağı temperatur, elektrik cərəyanı, barometrik təzyiq, şüa enerjisi) təsirindən əmələ gələn xəsarətlər zamanı aparılan məhkəmə-tibbi ekspertiza. | **2** |
| **15** | Zəhərlənmələrə şübhə olan hallarda meyitlərin məhkəmə-tibbi ekspertizası. | **2** |
| **16** | Yeni doğulmuş uşaq meyitlərinin məhkəmə-tibbi ekspertizası. | **2** |
| **17** | Tibb işçilərinin peşə sahəsindəki qanunsuz hərəkətləri zamanı aparılan məhkəmə-tibbi ekspertiza. | **2** |
| **18** | Maddi sübutların məhkəmə-tibbi ekspertizası. | **1** |

**QİYMƏTLƏNDİRMƏ:**

Fənn üzrə krediti qazanmaq üçün lazımi 100 balın toplanması aşağıdakı kimi olacaq:

50 bal – imtahana qədər

O cümlədən:

10 bal – dərsə davamiyyət

10 bal – sərbəst iş

30 bal – praktik dərslərdə nəzəri biliyə görə toplanacaq ballardır.

Semestr ərzində 3 dəfə kollokvum keçiriləcəkdir (minimum 3). Kollokvumda iştirak etmədikdə jurnalda 0 (sıfır) bal qeyd olunacaqdır.

50 bal – imtahanda toplanılacaq.

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual bir baldır. Səhv cavablanan suallar düzgün cavablanan sualların ballarını silir.

**QEYD:**

İmtahanda minimum 17 bal qazanılmasa, imtahana qədər yığılan ballar toplanılmayacaq. İmtahanda və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

A - “Əla” - 91 - 100
B - “Çox yaxşı” - 81 - 90
C - “Yaxşı” - 71 - 80
D - “Kafi” - 61 - 70
E - “Qənaətbəxş” - 51 - 60
F - “Qeyri-kafi” - 51 baldan aşağı.

**SƏRBƏST İŞ:**

Semestr ərzində 5 sərbəst iş tapşırığı verilir. Hər tapşırığın yerinə yetirilməsi 2 balla qiymətləndirilir.

Sərbəst iş yazılı formada, həcmi 1-2 səhifə olmalıdır.

Hər bir sərbəst iş tələbənin fərdi fikirlərinin məcmusu olduğuna görə plaqiat yolverilməzdir.

## SƏRBƏST İŞLƏRİN MÖVZULARI VƏ TƏHVİL VERİLMƏSİNİN SON TARİXİ

| № | Mövzular | Son tarix |
|---|---|---|
| 1 | Мящкямя-тиббі travmatologiya. Xəsarətlər və travmatizm haqqında anlayış. Mexaniki zədələnmələr zamanı ölömön səbəbləri. | 17 dekabr 2022 |
| 2 | Автомобил зядялянмяси вя онун нювляри. Автоняглиййат зядялянмясинин ясас нювляриндя хясарятлярин хцсусиййяти вя ямяля эялмя механизми. | 17 dekabr 2022 |
| 3 | Щипоксийа вя механики асфиксийа щаггында анлайыш. Механики асфиксийанын нювляри. Механики асфиксийанын дюврляринин цмуми хцсусиййятляри, мейитин мцайинясиндя мцяййян едилян яламятляр. | 17 dekabr 2022 |
| 4 | Илк мейит яламятляринин юлцмцн баш вермя вахтынын вя башга експерт мясяляляринин щялли цчцн истифадя олунмасы. | 17 dekabr 2022 |
| 5 | Мадди сцбутларын мящкямя-тибби експертизасы. | 17 dekabr 2022 |

Son tarixdən sonra təqdim olunan sərbəst işlər səbəbindən asılı olmayaraq nəzərə alınmayacaqdır.

Sərbəst işlərin nəticələri jurnalda qeyd olunur.

***ƏDƏBİYYAT VƏ MATERİALLAR:***


1. R.M.Yusifli «Məhkəmə təbabətinin əsasları», Bakı, 2001.
2. Ş.M.Musayev «Məhkəmə təbabəti», Bakı, 2006.
3. M.O.Bunyatov «Məhkəmə təbabəti», Bakı, 2010.
4. M.O.Bunyatov, E.İ.Ələkbərov, Z.M.Məmmədov «Məhkəmə-tibbi terminlərin tədris-məlumat lüğəti», Bakı, 2014.
5. M.O.Bunyatov, Ü.S.Mikayılov «Meyit müayinəsinin məhkəmə-tibbi aspektləri», dərs vəsaiti, Bakı, 2015.
6. В.Н.Крюков «Судебная медицина», Москва, 2012.
7. Вторичная: Пиголкин Ю.И. Судебная медицина. Учебник-Москва: ГЭОТАР-Медиа, 2007.
8. Федорович В.Ю. Судебная экспертиза, учебное пособие, М.2008.
9. Г.П.Джуваляков, Д.В.Сундуков «Практикум по судебной медицине» Ростов на Дону. 2006.
10. В.Л.Попов, Практикум по судебной медицине. Санкт-Петербург, 2001.
11. В.В.Томилин, Практикум по судебной медицине. Москва, 1971.


**KURS İŞİ**

Bu fənn üzrə kurs işi nəzərdə tutulmur.

**TƏCRÜBƏ**

Bu fənn üzrə istehsalat təcrübəsi nəzərdə tutulmur.

Hazırladı dos. Xanməmmədova A.A.